# Səməd Vurğunun eyni mövzuda iki şeiri

■ ***Dillərdə əzbər olan, "Şair, nə tez qocaldın sən?!" şeiri niyə eyni adla, eyni mövzuda ikidir? Oxucu elə fikirləşməsin ki, şair özü-özünü təkrar edib. Yox, elə deyil, hər iki şeirin yaranma tarixi var. Güclü ov həvəskarı olan Səməd Vurğun Azərbaycanın səfalı yerlərini oba-oba, kənd-kənd gəzirdi. Onun məqsədi özü demişkən, çöllər gözəli ceyranı, cüyürü, turacı məhv etmək deyildi. Ağır yaradıcılıqdan sonra təbiətin seyrinə çıxıb təmiz hava almaq ona mənəvi qida verirdi. Ovun ən gözəl ləzzəti bürkülü şəhər havasından sonra təbiətin seyrinə çıxmaq, yorğun bədənə ruhən dinclik verməkdir.***

Bütün böyük sənətkarlarda bu həvəs olub. Mehdi Hüseyn, Mikayıl Rzaquluzadə, Lev Tolstoy, İvan Turgenev və başqaları əsrarəngiz təbiətin vurğunu idilər. Bu ov səfərləri dahilərə həm də yaddaqalan əsərlərin yazılması üçün mövzu verib.

1944-cü il noyabrın 10-da Qarayazı meşəsinə ova gedən şair Ağstafa stansiyasında qatardan düşür. Təsadüfən uzaq qohumu Qara Nabat deyilən arvadla rastlaşır. Çoxdan şairi görməyən Nabat arvad həsrətlə onun boynunu qucaqlayıb:

– Qabağında ölüm, a çalbaş, nə tez qocaldın? - deyib kövrəlib ağlayır.

Şair bərk tutulur, bilmir nə desin. Təsirlənən Səməd Vurğun dalbadal papiros çəkə-çəkə kədərlə soruşur:

– Sən nə təhərsən, maşallah, yaxşısan. Elə bil illərin qışının, boranını, yayın istisini görməmisən. Kəndimizdə nə var, nə yox?

Bu görüşün şahidi olan mərhum şair Mikayıl Rzaquluzadə deyirdi ki, Qara Nabatın "nə tez qocaldın, a çalbaş" sözlərindən təsirlənən Səmədin nurlu üzü qaralmışdı. Nabat arvad nə danışırdısa hiss edilirdi ki, Səməd qəm dəryasına qərq olub. Söz onu yaman tutmuşdu. Halallaşıb ayrılanda Səməd yenə fikirli idi. Kədərlə mənə baxıb dedi:

– A Mikayıl, doğrudan, deyəsən, yaman qocalmışam axı. Atalar haqlı deyirlər ki, elin gözü tərəzidi. Sonra isə tüfənginin qundağını geri eləyib: – Ayə, Qara Nabat yaman dedi ha – deyib duruxdu.

Mən təsəlli versəm də gördüm ki, Səməd heç özündə deyil. sən demə misraları qoşurmuş:

***Kəndə getdim... Bir ağbirçək***
***Qucaqladı məni görcək.***
***O ağladı bir ana tək...***
***Dedi: – kaş ki, öləydim mən,***
***Şair, nə tez qocaldın sən?!***



Birbaşa dostu Mirqasım Əfəndiyevin evinə düşdük. Cavan bir oğlanı çağırıb dedi:

– A Nazim, a bala, mənə bir varaq ver. Elə ordaca - 10 noyabr 1944-cü ildə "Şair, nə tez qocaldın sən?!" şeirini yazdı. Xoşbəxtəm ki, şeirin ilk dinləyicisi mən oldum.

***Viran könlüm varaq-varaq...***
***Əsdi xəzan, düşdü yarpaq.***
***Ana vətən, ana torpaq***
***Bir ah çəkdi sinəsindən:***
***– Şair, nə tez qocaldın sən?!***

1953-cü ilin dekabr ayında Səməd Vurğun dahi şair Nizami Gəncəvinin vəfatının 750 illiyində iştirak etmək üçün Gəncəyə gedir. Onun az vaxt içərisində bu qədər qocalması, saçlarının ağarması keçmiş müəllimə yoldaşı Firuzə xanıma həddindən artıq təsir edir. Onlar 1928-1929-cu illərdə Gəncədəki 7 saylı orta məktəbdə müəllim işləmişdilər. Səməd Vurğun Hacızadələr ailəsinin sevimlisi olmuşdu. Şair Firuzə xanımın şeir-sənət vurğunu olan atası İsfəndiyarın və həyat yoldaşı İdrisin xətrini çox istəyirdi.

Firuzə xanım Hacızadə danışırdı ki, Səməd 1928-ci ildə bizdə olanda sadəlikdən söhbət düşdü. Onda mənə bağışladığı şəklin arxasına yazmışdı: "Məğrurluq! Bu müsbət keyfiyyətdir. Belə bir yüksək keyfiyyət, əziz nemət kobudluğa çevriləndə öz mənasını itirir. Sadə və mənalı yaşamaq insanın zinətidir".

O vaxtdan gözümdə qara qıvrım saçlı, şux yerişli Səmədi 1953-cü ildə görəndə təəccübdən özümü saxlaya bilməyib bacı ərkilə dedim:

– A şair, nə yaman qocalıbsan?

Səməd Vurğun qəfil verilən sualdan bərk tutulur. Amma heç nə demir. Axşam Cəfər Cabbarlı adına teatrda Nizami Gəncəvinin şərəfinə təntənəli yığıncaq başlayır. Rəyasət heyətində əyləşən Səməd Vurğun qabağındakı şagird dəftərinə nəsə yazırdı. Söz şairə veriləndə Nizami haqqında alovlu bir nitq söyləyir. Sonda isə deyir:

– İndi də saat yarım əvvəl mənə "Şair, nə yaman qocalmısan?" sualını verən Gəncədəki keçmiş müəllimə yoldaşım Firuzə xanıma cavab olaraq bir şeir oxuyacam:

***Nemətsə də gözəl şeir,***
***Şair olan qəm də yeyir.***
***Ömür keçir bu adətlə,***
***Uğurlu bir səadətlə.***
***Görən məni nədir deyir:***
***Saçlarına düşən bu dən?***
***Şair, nə tez qocaldın sən?***

* * *

***Saç ağardı, ancaq ürək***
***Alovludur əvvəlki tək.***
***Saç ağardı, ancaq nə qəm!***
***Əlimdədir hələ qələm...***
***Bilirəm ki, deməyəcək***
***Bir sevgilim, bir də Vətən:***
***Şair, nə tez qocaldın sən!***

Təntənəli yığıncaqdan sonra Səməd Vurğun şagird dəftərinə yazdığı "Şair, nə tez qocaldın sən?!" şeirinin əlyazmasını Firuzə xanım Hacızadəyə hədiyyə verdi.

1974-cü ildə görüşdüyüm Firuzə xanım şairin arxası avtoqraflı şəklini və şeiri Səməd Vurğundan əziz yadigar kimi saxlayırdı.

# "Qürbət eldə can vermərəm ölümə"



***Pekin. Xəstəxana. Noyabr ayı,***
***Əlli beşinci il... yazdı qələmi.***
***Min qəlbi oyatdı bir qəlb harayı,***
***Qəmlərdən ağarmış bir şair qəmi!***

***Şikayət elədin vaxtsız əcəldən,***
***Hələ bir sinənin min sözü vardı.***
***Şairim, yüz il də yaşasaydın sən***
***Ölümün yenə də vaxtsız olardı.***

***Nəriman Həsənzadə,***
***Xalq şairi, "Vaxtsız əcəl" şeiri.***

1955-ci ilin oktyabrında Vyetnam Demokratik Respublikasına gedən Səməd Vurğun yolüstü Pekində olarkən məşhur Tyananmen meydanına tamaşa etmiş, meydanın tarixi ilə maraqlanmışdır. Pekin darülfününda olmuş və hərbi akademiyada zabit heyəti qarşısında çıxış etmişdir. Çin yazıçıları və alimləri – məşhur alim və ədib Qo-Mo-Jo, görkəmli şair Siyao ilə görüşmüş, onlara qonaq olmuşdu. Lakin qəflətən xəstələndiyi üçün yolunu davam etdirə bilməmişdi. Birdən-birə qızdırması qalxdığına görə Səməd Vurğun Pekindəki "Qırmızı xaç" xəstəxanasında üç həftə müalicə olunduqdan sonra geri qayıtmışdı. İlk sovet nümayəndə heyətinin tərkibində Vyetnama getməkdə onun arzusu inqilab hərəkatının başçısı Xo Şi Min və yeni qurduqları dövlət haqqında oçerk yazmaq idi.

Oktyabrın otuz birində Səməd Vurğun Pekin şəhərindən ailəsinə göndərdiyi məktubda yazırdı:

*"Əzizim, gözümün işığı Xavər! Oktyabrın 28-də təyyarə ilə Çinin paytaxtı Pekin şəhərinə gəldik. İqlimin kəskin surətdə dəyişməsi nəticəsində mən bir az ağır nəfəs almağa başladım. Vyetnam isə daha cənubda və çox yağarlıq olduğundan həkimlər ora getməyi mənə məsləhət görmədilər.*

*Odur ki, mən noyabrın 10-na kimi Çində qalıb, sonra qatarla (8 günlük yol) Moskvaya qayıdacağam. Bu gecə pis yuxu gördüm. Gördüm ki, Aybəniz məni xəstə zənn edib bərk-bərk ağlayır, görünür ki, mənim həsrətimi çəkirsiniz. Onu deyim ki, ömrümdə bu qədər sizi xatırlamamışdım... Ürəyinə başqa şey gəlməsin kefim yaxşıdır. Böyük Çin torpağından zəngin xatirələrlə qayıdacağam, yəqin ki, yenə tərlan təbim aşıb-daşacaqdır. Burdan məktub və teleqram göndərmək çox çətindir.*

*Mehdixanı, uşaqları öpürəm. Məndən hamıya salam de. Sənin Səməd Vurğunun.*

*Aybəniz! Gələn kimi səni qucaqlayıb bir saat öpəcəyəm. Vaqif inciməsin deyə onu da bir saat öpəcəyəm. Qurban olum sizə, ananızı incitməyin, dərslərə fikir verin".*

Səməd Vurğunu Pekində müşayiət edən Çin-Sovet Dostluğu Cəmiyyətinin əməkdaşı Ka-Man mərhum jurnalistimiz Rza Quliyevlə söhbətində demişdir:

- Səməd Vurğunun ölümü çinli dostlarına çox ağır təsir etmişdi. Qocaman şairimiz, Səməd Vurğunun dostu Ke-Çjun-Pin həmişə onu xatırlayır, əsərlərini dönə-dönə oxuyur.

- Paytaxtınızın daha hansı görməli yerlərilə Səməd Vurğun tanış oldu? - sualına Ka-Man:

- Sun-Yat-Sen parkı ilə, - deyir.

Sun-Yat-Sen parkı sülh uğrunda mübarizə ilə sıx əlaqədardır. Ağ daşdan düzəldilmiş qübbənin üzərində "Sülhü müdafiə edək!" sözləri qızılı hərflərlə yazılmışdır. Ölkə azad edildikdən sonra burada dostluq gecələri, sülhü müdafiə mitinqləri keçirilmiş, müharibə qızışdırmağa çalışan imperialistlərin qəsdlərinə lənətlər yağdıran Çin xalqının gur səsi aləmə yayılmışdır.

Bol və rəngarəng güllər, çiçək ləkləri, şüşə qablarda saxlanan qızıl balıqlar, fanarlar, bəzək ağacları, milli üslubda düzəldilən çardaqlar parkın gözəlliyini daha da artırır.

Uca sərv ağaclı, gül-çiçək xiyabanlı parkı başdan-ayağa gəzən Səməd Vurğun xrozental güllərinin sərgisinə baxmış, onların ətrini duymuşdur.

Qocaman sərv ağacının yanında dayanan Səməd Vurğun Ka-Mana demişdir:

- Bəlkə bu ağacın yanında mənim şəklimi çəkəsən? Deyəsən mən də onun kimi qocayam.

Ka-Man isə cavabında:

- Biz Sizə də qocaman sərv ağacı qədər ömür arzulayırıq.

Xoşbəxt elimizin susmaz nəğməkarı Səməd Vurğun gülümsünüb, şlyapasını çıxarır və "çox sağ ol", - deyir.

1955-ci ilin oktyabrında Sun-Yat-Sen sülh parkında qocaman sərv ağacı yanında ağ saçlı şairin poeziyası kimi nəsillərdən-nəsillərə yadigar bir şəkli qaldı. Bir də Pekin xəstəxanasında yazdığı:

***Vaxtsız əcəl, məndən uzaq dayan, dur,***
***Qürbət eldə can verməərəm ölümə!***
***Qılıncını məndən uzaq dolandır.***
***Onu bil ki, qələm aldım əlimə, -***
***Qürbət eldə can verməərəm ölümə!..***

- beş misralıq ölümə üsyan edən şeir.

İllər keçəndən sonra şairin Cində görüşdüyü məşhur yazıçı-professor Qe Baosoan Səməd Vurğunu unutmamışdır. O, 1987-ci ildə Bakıda olanda Səməd Vurğunun ev muzeyinə getmiş və rəy kitabına unudulmaz şair haqqında ürək sözlərini yazmışdır:

"Əzizim şair Səməd Vurğun! Pekində 1955-ci ilin noyabrında bizim görüşümüzdən sonra səni mən əbədi olaraq öz ürəyimdə saxladım.

Bu gün mən yenidən görüşmək üçün uzaq Pekindən gəldim, gözəl Bakı şəhərinə, Sənin yanına gəlmişəm. Heyif ki...

***Professor-yazıçı Qe Baosan,***
**21 yanvar 1987-ci il"**

***Şəmistan NƏZİRLİ,***
***tədqiqatçı jurnalist***